**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.34**

**İLHAMİ ƏLİYEV**

# I RUSİYA-İRAN MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ İRANIN NAXÇIVANDAKI SİYASİ VƏZİYYƏTƏ TƏSİRİ

*Məqalədə XIX əsrin əvvəllərində Qacarlar dövlətinin Azərbaycanda, xüsusilə də, Naxçıvanda siyasi vəziyyətə təsirindən bəhs edilir. Qeyd edilir ki, bu zaman Azərbaycan torpaqları uğrunda Rusiya və Qacarlar dövləti çox gərgin mübarizə aparırdılar. Rusiyanın Azərbaycanın bir sıra torpaqlarını işğal etməsi və növbəti hədəflərindən birinin də Naxçıvanı seçməsi, Qacarlar dövlətinin bu işğala qarşı çox kəskin mövqe nümayiş etdirməsi və bu yerləri şah hakimiyyətinə tabe etdirmək istəyi təbii ki, Naxçıvan bölgəsindəki siyasi durumu gərginləşdirirdi. I Rusiya-İran müharibəsinin başlanmasına qədər Qacar hərbi qüvvələrinin bir neçə dəfə Naxçıvana hücum etməsi bölgə ərazisinin işğal edilməsi, burada yerli hakimiyyət dəyişikliklərinin edilməsi, əhalinin müəyyən hissəsinin müvəqqəti olsa da öz evlərini tərk etməsi və s. halların baş verməsi ilə nəticələnirdi.*

*Bu illərdə Naxçıvanın qəhrəmanlıqla müdafiə olunmasında Naxçıvan xanı I Kəlbəli xan çox böyük idarəçilik və sərkərdəlik qabiliyyəti ilə seçilmişdir. O, Rusiya və Qacarlar dövləti arasında çox ağıllı diplomatik manevrlər edərək bölgəni işğal edilmək təhlükəsindən qorumağa çalışmışdır. Təkcə Naxçıvanı deyil, İrəvan xanlığını da mümkün qədər bu hücumlardan müdafiə etmişdir. Lakin, I Rusiya-İran müharibəsinin başlanmasına qədər artıq bölgə ərazisi Qacarlar dövləti tərəfindən tutulmuş, Rusiyanın işğal planı isə baş tutmamışdır.*

**Açar sözlər:** *Qacarlar dövləti, Rusiya, Naxçıvan xanlığı, müharibə, siyasi vəziyyət, diplomatik manevr.*

**Giriş.** Ağa Məhəmməd xan Qacar 1793-cü ildə Azərbaycanın Şimal xanlıqlarını öz hakimiyyəti altına almaq məqsədilə ilk ciddi addımını atdı. O, Qarabağ, İrəvan, Naxçıvan və Quba xanlıqlarını onun hakimiyyətinə tabe olmağa dəvət etdi [12, s. 190], lakin istədiyi nəticəni ala bilmədi. Qacar hakimiyyəti 1794-cü ildə növbəti dəfə belə bir cəhd etdi. Ancaq Qarabağ xanı və Kartli-Kaxetiya çarının birləşmiş qüvvələri onun qoşunlarını məğlub edərək geri çəkilməyə məcbur etdilər [15, s. 83].

Cənubi Qafqaz uğrunda mübarizənin ən gərgin anı isə Ağa Məhəmməd şah Qacarın 1795 və 1797-ci illərdə və rus ordusunun 1796-cı ildə bu bölgəyə müdaxilələri ilə oldu [3, s. 21]. Real nəticə əldə edilməsə də, yəni tərəflər işğal etdikləri yerlərdə möhkəmlənə bilməsələr də, onlar öz mövqelərini nümayiş etdirdilər.

**Qacarlar dövləti və Rusiyanın Azərbaycandakı siyasi vəziyyətə təsiri.** Ağa Məhəmməd şah Qacarın 1797-ci ilin iyununda Şuşada öldürülməsi Qacarlar dövlətində siyasi gərginliyə rəvac verdi. Növbəti ilin martında hakimiyyətə gələn Fətəli şah (1798-1834) xarici və daxili siyasətində Ağa Məhəmməd şah Qacarın yolunu davam etdirməyə başladı. O, Şimali Azərbaycan xanlıqlarını öz hakimiyyətinə tabe etdirmək məqsədilə Rusiya dövlətinin buradakı mövqeyini dəyişdirmək üçün diplomatik manevrlər etməyə başladı. Bu məqsədlə Fətəli şah 1798-ci ilin aprelində Peterburqa göndərdiyi nümayəndə heyəti ilə ticarət əlaqələrində Rusiyaya müəyyən güzəştlər etmək müqabilində bu dövlətin Cənubi Qafqaz məsələsinə müdaxilə etməyəcəyinə təminat almaq istəyirdi. Bu zaman hakimiyyətdə olan çar I Pavel Cənubi Qafqazdan qoşunları geri çəksə də, Rusiya dövləti nəinki bu təkliflə razılaşdı, hətta Qacarlar dövlətinin Kartli-Kaxetiya çarlığına, Bakı və Dərbənd xanlıqlarına, bütünlüklə Xəzər dənizi ilə Gürcü çarlığı arasındakı bütün torpaqlara istənilən iddiadan əl çəkməsini tələb etdi [11, s. 434-435].

Bunun əvəzində Qacarlar dövləti Rusiyanı Qafqazdan sıxışdırıb çıxarmağa çalışan İngiltərə ilə 1801-ci ildə ticarət müqaviləsi imzaladı ki, bu müqaviləyə əsasən ingilis tacirləri nəinki bütün Qacarlar dövləti ərazisində, o cümlədən də Şimali Azərbaycan xanlıqlarında ticarət etmək hüququ əldə edirdilər [14, s. 43]. Lakin 1801-ci ilin martında I Pavelin ölümündən sonra I Aleksandrın hakimiyyətə gəlişi ilə əvvəlcə pozulmuş Rusiya-İngiltərə münasibətləri qaydaya salındı. Fransaya qarşı

bu dövlətlər birlikdə mübarizə aparmaq üçün razılığa gəldilər. Həmin vaxt Fransa belə bir vəziyyətdən istifadə edərək Rusiyaya qarşı Fətəli şaha müqavilə bağlamağı təklif etdi [1, s. 15-16].

Bu zaman Rusiya dövləti bölgədə baş verən prosesləri diqqətlə izləyərək, Şimali Azərbaycanda Qacarlar sülaləsinin yenidən hakimiyyətə gəlməsinin qarşısını almağa, Gürcüstanın təhlükəsizliyini qorumağa və Xəzəryanı bölgələrdə rus tacirlərinin maraqlarını təmin etməyə çalışırdı [3, s. 22].

1800-cü il dekabrın 28-də Kartli-Kaxetiya çarı XII Georgi öldükdən və çarlıq daxilində çəkişmələr başladıqdan sonra çar Rusiyası Cənubi Qafqazda təsirini artırmaq üçün hərəkətə keçdi. 1801-ci il yanvarın 20-də verilən xüsusi fərmanla şahzadə David çar taxtına varislik hüququndan məhrum edildi və çarlığın idarəsi general-leytenant Karl Fyodoroviç Knorrinqə tapşırıldı. Beləliklə, çar Rusiyası Qazax, Şəmşəddil, Borçalı və Pəmbək sultanlıqları da daxil olmaqla Şərqi Gürcüstanın işğal edilməsi istiqamətində mühüm addımlarından birini atmış oldu [3, s. 22-23].

Qacarlar dövləti isə Rusiyanın işğalçı ordusuna qarşı kifayət qədər güc toplaya bilmədiyi üçün həm diplomatik yollarla müraciət edir, həm də bölgədəki tərəfdarlarını aldadaraq şişirdilmiş vədlər verirdi. Bu arada Rusiya yeni işğallar üçün hazırlıqlarını davam etdirirdi.

**Qacarlar dövlətinin Naxçıvandakı siyasi vəziyyətə təsiri.** XIX əsrin ilk başlanğıcında Naxçıvan xanlığında Abbasqulu xan hakimiyyətdə idi. Ağa Məhəmməd şah Qacar tərəfindən gözləri çıxarılaraq (1796) zindana salınmış Kəlbəli xanı Fətəli şah azad etsə də, onun Naxçıvanda deyil, İrəvan xanlığında yaşamasına icazə vermişdi. Gözlərini itirməsinə baxmayaraq, Kəlbəli xan ruhdan düşmədi və siyasətdən uzaqlaşmadı. İrəvanlı Məhəmməd xanın gənc və qətiyyətsiz olmasından faydalanan Kəlbəli xan tez bir zamanda onun etibarını qazandı və xanlığın ən çox güvənilən adamlarından birinə çevrildi [10, s. 105].

İrəvanda olmasına baxmayaraq Kəlbəli xan hələ də naxçıvanlılar arasında böyük nüfuz sahibi idi. Buna görə də xanın İrəvanda olduğunu eşidən saray adamlarının çoxu ailələri ilə birlikdə onun yanına köçməyə başladılar. Abbasqulu xan bu kütləvi köçü dayandıra bilmədi [2, s. 78]. Kəlbəli xanı hakimiyyətdə görmək istəyənlər onun yanına köçməklə təbii ki, onun hakimiyyətinin bərpasını istəyirdilər.

1797-1801-ci illərdə İrəvanda yaşayan Kəlbəli xan 1801-ci ildə Abbasqulu xanı devirməklə Naxçıvanda hakimiyyətini bərpa etdi. Bu hadisədən qəzəblənən Fətəli şah dərhal sərdarı Təbrizə göndərərək, Naxçıvanda Abbasqulu xanın hakimiyyətini bərpa etmək üçün qoşun toplamaq haqqında əmr verdi [16, s. 26]. Bu haqda bəhs edilən mənbədə göstərilir ki, şahın təyin etdiyi sərdar Təbrizə gəlib burada qoşun toplamağa başladı. Məqsədləri Naxçıvana gedib orada mövcud xanı devirmək və Abbasqulu xanın hakimiyyətini bərpa etmək idi. Mənbədə bu da göstərilir ki, həmin vaxt şah tərəfi İrəvan xanı Məhəmməd xandan və Kəlbəli xandan "təfirqə" (yəni kəndlər) verilməsini tələb etdi. Bildirdi ki, əgər verməsələr Novruzda hücum edib bu yerləri ələ keçirəcəklər [8, s. 694].

Fətəli şahın göndərdiyi qoşundan müdafiə olunmaq üçün Kəlbəli xan qalanı möhkəmləndirdi. Ərzaq ehtiyatı topladı. Lakin qacarların hərbi qüvvələri Naxçıvana ancaq bir il sonra gəldilər. Qeyd etmək lazımdır ki, o dövrdə qacarların daimi qoşun hissələri yox idi və hərbi qüvvələr hücum zamanı toplanırdı. Fətəli şahın ordusunun əsasını köçəri və yarımköçəri tayfaların süvariləri (ilk növbədə özləri qacarlar) və müxtəlif əhali təbəqələrindən olan piyadalar təşkil edirdi. Hərbi qüvvələrin hücuma hazırlıq vəziyyətinə gətirilməsindən ötrü sərdar döyüş üçün toplanan bütün qüvvələri nisbətən nizama salır və onları çoxsaylı (bir neçə on minə qədər) amma ciddi döyüş əməliyyatlarına hazırlıqsız bir orduya çevirirdi. Bu zaman Xoy, Mərənd, Maku və Naxçıvan öz dağıntıları və əhali çatışmazlığı səbəbindən belə bir ordunun qarşısında ciddi müqavimət göstərə bilməzdi. Amma güclü bir qala və ya müntəzəm ordu qarşısında sonuncu heç bir şey edə bilmədi [16, s. 27]. Bu məqsədlə Kəlbəli xanın gördüyü tədbirlər qacarların hücumunun qarşısını aldı.

Bu dövrdə İranla çətin münasibətlərə baxmayaraq, Kəlbəli xanın öz gücünə olan inamı o qədər artdı ki, 1802-ci ilin may ayında İrəvan və Naxçıvan xanlığının qoşunları ilə Qars paşasının üzərinə yürüş etdi. O, paşadan Osmanlı dövləti ərazisindən Naxçıvan və Xoy xanlıqlarına hücum

edən, başçıları Əli ağa olan kürd dəstələrinin təhvil verilməsini tələb etdi. Lakin Qars sərhədinə yaxınlaşarkən xan gözlənilmədən rus hərbi qüvvələri ilə qarşılaşdı. Bu zaman rus qoşunlarının komandiri polkovnik Pavel Mixayloviç Karyagin (1761-1807) yuxarıdan təlimat almışdı ki, türk paşasına kömək etsin. Rus zabiti Naxçıvan xanını öz niyyətlərindən imtina etmək üçün yola gətirməyə çalışsa da, Kəlbəli xan əksinə paşaya qarşı öz tələblərinin qanuni olduğuna əminliyini bildirdi və rusların geri çəkilməsini tələb etdi. 1802-ci ilin mayın 27-də İrəvan və Naxçıvan xanlığının qoşunları ilə Osmanlı və rusların birləşmiş qüvvələri arasında döyüş baş verdi. 3 saat davam edən döyüşdən sonra xanlığın qoşunları Arpaçayı boyunca yuxarıya doğru geriyə çəkildi [16, s. 28-29]. Göründüyü kimi, müttəfiq Naxçıvan və İrəvan xanlığı hərbi qüvvələrinin Qars üzərinə yürüşü Qafqazdakı rus komandanlığı tərəfindən dayandırıldı. Bu ona görə edildi ki, rus komandanlığı 1801-ci ildə Rusiyanın tərkibinə daxil edilmiş Kartli-Kaxetiya çarlığının sərhədlərində münaqişə olmasını istəmirdi [2, s. 78-79].

1802-ci ilin iyun ayında Fətəli şah İrəvan və Naxçıvan xanlarına öz iradəsini qəbul etdirmək üçün növbəti dəfə onların üzərinə qoşun göndərdi. Bu zaman Pirqulu xan 4 min nəfərlik Qacar qoşunu ilə Naxçıvana yaxınlaşdı [11, s. 544]. Kəlbəli xan düşmən gəlib çatmamışdan əvvəl ona daha yaxın olan yerli sakinlərin bir hissəsi ilə İrəvan qalasına sığındı. Pirqulu xan elçi vasitəsilə Fətəli şahın adından Məhəmməd xandan naxçıvanlıların ona təhvil verilməsini tələb etdi. Bildirdi ki, əgər bu tələb yerinə yetirilməsə qarşı tərəf yüz min manat cərimə olunacaq. Bu zaman Pirqulu xanın tələbləri təkcə bununla bitmirdi. Fətəli şahın əmri ilə o, Azərbaycan xanlarından tabe olmaq rəmzi kimi girov verməyi də tələb edirdi. Lakin Pirqulu xanın şahın bu fərmanını yerinə yetirməsi baş tutmadı. İrəvan xanı bu tələbi rədd etdi. P.D.Sisianov 1802-ci ilin sentyabrında Qafqazdakı rus qoşunlarının ali baş komandanı təyin edildikdən sonra Fətəli şah Pirqulu xanı geri çağırdı [10, s. 107].

Yalnız uzunmüddətli danışıqlar nəticəsində Fətəli şah Kəlbəli xanı Naxçıvan xanı kimi tanıdıqdan sonra Kəlbəli xan İrəvan qalasına sığınan sakinlərlə birlikdə (200 ailə) Naxçıvana qayıtdı [16, s. 29]. Bu zaman şah bölgə əhalisi tərəfindən böyük hörmət qazanmış Kəlbəli xanı öz vəzifəsinə qaytarmaqla yerli əhalinin rəğbətini qazanmaq istəyirdi. Lakin nə xanın, nə də əhalinin ona qarşı mənfi münasibəti dəyişmədi.

1803-cü ilin fevralında P.D.Sisianovun Tiflisə gəlməsi Kəlbəli xanın Naxçıvana qayıtması ilə eyni vaxta düşmüşdür [2, s. 79]. Görünür P.D.Sisianovun gəlişi şahın Kəlbəli xana güzəştə getməsinə təsir etmişdir.

Bütün bunlardan sonra Fətəli şahla Kəlbəli xan arasında formal barışıq baş tutmuş oldu və bu qısa bir müddətə Naxçıvanda sakit idarəçiliyi təmin etdi. Lakin XIX əsrin başlarından Rusiyanın Azərbaycan torpaqlarını – 1803-cü ilin martında Car-Balakən camaatlığını, 1804-cü ilin yanvarında Gəncə xanlığını işğal etməyə başlaması artıq qarşıda böyük müharibənin baş verməsini qaçınılmaz edirdi. Bu zaman baş verəcək müharibə meydanlarından biri də sözsüz ki, Naxçıvan xanlığı olacaqdı.

Qacar hökmdarı ilə müvəqqəti olaraq dinc münasibətləri qoruyub saxlayan Kəlbəli xan Tiflisdəki rus məmurları ilə əlaqələr qurmağa çalışırdı. Bu ərəfədə o, dəfələrlə rus generallarına öz sədaqəti haqqında fikirlərini çatdırırdı [9, s. 633, 608]. Şimaldan Rusiyanın əbədi dostluq və tam sadiqlik vədləri, Qacarların xidmətindəki uğursuzluqları Naxçıvan xanını belə müraciətlər etməyə vadar edirdi. O, 1802-ci il sentyabrında Qafqazdakı rus qoşunlarına yeni baş komandan təyin edilmiş P.D.Sisianova yazırdı ki, qacarlardan o qədər uzaqlaşmışam ki, onlar Allah olsa belə, mən onlara boyun əymərəm, çünki onları tanıyıram, onlara çox xidmət etmişəm. Lakin onlar xidmətlərimin qarşılığında məni gözlərimdən məhrum etdilər. O, qeyd edirdi ki, əgər bilsəm ki, ruslar Gürcüstandan P.P.Zubovun geri çəkilməsi kimi, geri dönməyəcəklər o zaman onlara xidmət edərəm [9, s. 634, 608].

Bu illərdə Kəlbəli xanın Fətəli şaha qarşı münasibəti, P.D.Sisianovla diplomatik əlaqələri təbii idi. Qacarların tez-tez bölgədəki siyasi vəziyyətə müdaxilə etməsi Rusiyanın burada getdikcə daha çox irəliləməsindən doğurdu. Naxçıvan xanı Rusiya ilə münasibətlərdə rusların burada daimi qalmasına əminlik baxımından ehtiyatla davranır, Qacarlarla əvvəlki əlaqələrin davam etdirilməsini

istəmirdi. Bunu 1804-cü ildə tam təsdiqlədi, çünki bu zaman Qacar və rus orduları arasında döyüş əməliyyatları başladı. Fətəli şah Kəlbəli xana bir fərman göndərərək intriqaları aradan qaldırmaq, rus qoşunlarını cəzalandırmaq və Gürcüstanın ən mühüm əyalətində qayda-qanun yaratmaq kimi tələblərini irəli sürdü. Lakin şahın yanındakı böyük oğlu Nəzərəli bəyin edam ediləcəyi və kəngərli-lərin zorla Naxçıvandan köçürüləcəyi təhdidlərinə baxmayaraq Kəlbəli xan Qacar hökmdarının bu əmrini də rədd etdi [17, s. 26-27].

**Qacar qoşunları tərəfindən Naxçıvanın tutulması.** 1804-cü ilin martında Qacar qoşununun ön dəstəsi Pirqulu xanın rəhbərliyi ilə yenidən Naxçıvan xanlığına hücum etdi və onun paytaxtını ələ keçirdi. Kəlbəli xan əvvəlki kimi, vaxtında Naxçıvanı tərk edib İrəvan qalasına sığınmışdı. P.D.Sisianova məlumat verən erməni kəşfiyyatçılar bildirirdilər ki, bu zaman Kəlbəli xan Məhəm-məd xana rus qoşunlarını dəvət etdiyini deyərək onu inandırmağa çalışsa da, İrəvan xanı ən yaxın tərəfdarları ilə qaladan ayrılaraq şəhər ətrafında düşərgə salmışdır. O, qacarlarla sonadək döyüşmək niyyətində idi [16, s. 31; 9, s. 806].

Bu arada qacarlar Təbrizdə öz hərbi qüvvələrini cəmləşdirirdilər. Ordunun baş komandanla-rından biri Fətəli şahın oğlu, vəliəhd şahzadə Abbas Mirzə idi. Fətəli şah özü də İrəvan qalasına gələcəyini vəd etmişdi [16, s. 32 ]. Tabe olmayan xanlara məktub göndərilmiş və onlara dərhal təs-lim olaraq Təbrizə gəlmələri təklif edilmişdi. Əks halda şah onları oğullarını öldürəcəyi ilə hədələ-yirdi [9, s. 611-612].

Bu zaman Rusiya tərəfi də sakit dayanmadı. P.D.Sisianov xanlara müraciət edərək İrəvana rus qoşunlarının buraxılmasını tələb etdi. 1804-cü il 5 may tarixində onun Kəlbəli xana göndərdiyi məktubunda həm vədlər, həm də təhdidlər var idi. O, qeyd edirdi ki, Kəlbəli xan Rusiya tərəfini dəstəklədiyinə görə ondan çox razıdır. İşlərin uğurla başa çatmasından sonra xanın yenidən Naxçı-van xanlığının taxtına oturacağını və onun dostu olacağını vəd edirdi. Tələbləri əsasən Məhəmməd xan haqqında idi. Bildirirdi ki, xan Rusiya tərəfindən qəbul edilən patriarx Danilin Üç kilsə mo-nastırının başçısı vəzifəsinə təyin edilməsinə yardım etsin, İrəvana rus qoşunlarını buraxsın, Rusiya imperatoruna sədaqət andı içsin və ildə 80 min rubl xərac ödəsin. Razılığa gəldikdə isə mükafat nəzərdə tutduğunu bildirirdi. Belə ki, razılığa gələrsə rus hakimiyyəti dövründə edam etmə hüqu-qundan başqa, xanın əvvəlki hüquqları saxlanılacaq, ona xanlıq ləyaqəti ilə bağlı fərman təqdim ediləcək və xan ailəsi Qacarlar dövlətindən azad ediləcəkdir. Məktubun sonunda P.D.Sisianov Kəl-bəli xana rus qoşunlarının tezliklə Naxçıvana doğru irəliləyəcəyini bildirir və fikrini özü üçün ənənəvi ifadə ilə bitirirdi ki, onlara qarşı çıxmağa cəsarət edənləri Gəncəli Cavad xanın aqibəti gözləyəcəkdir [9, s. 634]. Oxşar məzmunlu məktubu 5 gün sonra Məhəmməd xana da göndərmiş və eyni tələb və vədlərini bildirmişdi [9, s. 613].

Göründüyü kimi, bu zaman Naxçıvan xanlığı üçün çox gərgin vəziyyət yaranmışdı. Xanlıq Qacar qoşunları tərəfindən tutulmuş, xanın sığındığı İrəvan xanlığı artıq iki böyük dövlətin hədəfinə tuş gəlmiş, tezliklə buranın onların müharibə meydanına çevrilməsi gözlənilirdi. Hər iki tərəf xan-lığı hədələyirdi. Lakin Rusiya tərəfi həm də şirnikləndirici vədlər verirdi. Qacarlar bu vədləri ver-mirdi, çünki onların əlində həm sahiblik iddiası, həm də xanların ailələrindən olan girovlar var idi. İlk baxışda xanların Rusiyaya meyli açıqca görsənirdi. Lakin siyasi vəziyyətin gedişi buna təsir gös-tərməyə bilməzdi.

Məktubdan sonra tezliklə P.D.Sisianov hərəkətə keçdi. O, general-mayor İ.S.Leontyevə iki piyada batalyonu və beş top ilə Pəmbəkə doğru irəliləməyi əmr etdi. Artıq İrəvana yürüş qərarı qə-bul edilmişdi. 1804-cü il iyunun 1-də P.D.Sisianov Gürcüstanın idarəsini knyaz Q.S.Volkonskiyə tapşıraraq özü sərhədə doğru yola düşdü [16, s. 32].

Gəncə xanlığının amansızcasına işğalı və onun məktub vasitəsilə xanlara hədələyici nümunə kimi çatdırılması artıq Kəlbəli xanı öz seçimini etməyə tələsdirdi. Təbii ki, o, P.D.Sisianovun işğalı-nın qarşısını almaq üçün imkan daxilində müdafiə olunmağı qərarlaşdırdı. Kəlbəli xan bu müda-fiədə diplomatik manevrlərdən də yan keçmədi.

Rus qoşunlarının bölgəyə işğalçılıq hücumuna başlaması Qacarlar dövlətini dərhal əks addımlar atmağı sövq etdi. Yuxarıda qeyd edildiyi kimi, Fətəli şahın əmri ilə Təbrizdə şahzadə Abbas Mirzənin və Süleyman xanın komandanlığı altında 20-30 minlik qoşun toplandı. Abbas Mirzənin komandanlığı altında 20 minlik şah qoşununun bir hissəsi İrəvana hücum edərək, 1804-cü il iyunun 1-də qalanı mühasirəyə aldı. Məhəmməd xan və Kəlbəli xan İrəvan qalasına sığınaraq şah qoşununa güclü müqavimət göstərməyə başladılar. [4, s. 148-149, 151]. Abbas Mirzənin qoşununun tərkibində Abbasqulu xan və Kəlbəli Xanın böyük oğlu Nəzərəli bəy də var idi. Bu zaman Abbasqulu xan yenidən Naxçıvanın hakimi təyin edilmişdi. Ona ruslara qarşı fəaliyyət göstərən korpusun arxa cəbhəsinin rəhbərliyi, Təbrizdən artilleriya mərmilərinin daşınmasını təşkil etmək, İrəvana göndərilən pulların qorunmasını təmin etmək, Təbriz-Naxçıvan-İrəvan marşrutu üzrə nəqliyyat vasitələrini təşkil etmək və qoşunlar üçün ərzaq toplamaq tapşırılmışdı. Cəbhədə Abbas Mirzənin süvari qüvvələrinin tərkibində Kəngərli alayı da fəaliyyət göstərirdi. Naxçıvanda qalan kəngərlilər isə keşikçi xidmətini yerinə yetirir və Abbas Mirzənin təlimatlarının icrasında Abbasqulu xana kömək edirdilər. Bundan başqa Abbasqulu xanın üzərinə uzaq kəşfiyyat vəzifəsi də qoyulmuşdu, çünki onun bütün Cənubi Qafqazda geniş casus şəbəkəsi var idi [16, s. 34].

1804-cü il iyunun 20-də Abbas Mirzənin 12 minlik qoşunu ilə rus qoşunları arasında Üç kilsə uğrunda döyüş başlandı. Beş gün davam edən döyüş nəticəsində Üç kilsəni tuta bilməyəcəyinə əmin olan P.D.Sisianov iyunun 26-da oranı tərk edərək İrəvan şəhərinə doğru hərəkət etdi. Bu vaxt Abbas Mirzə əsas hərbi qüvvələr ilə İrəvandan 8 verst aralıda düşərgə salmışdı [4, s. 157].

Rus qoşunlarının İrəvan qalasına yaxınlaşdığını eşidən Məhəmməd xan və qaynı Kəlbəli xan bərk təşvişə düşərək, Abbas Mirzə ilə danışıqlara başladılar. Onlar vasitəçilik üçün sədrəzəm Mirzə Şəfiyə müraciət etdilər. Xanlar Abbas Mirzəyə hədiyyə göndərərək şah qoşununa müqavimət göstərdikləri üçün bağışlanmalarını və xanlığı rus qoşunundan müdafiə etməsini xahiş etdilər [4, s. 158]. Beləliklə, xanlar Abbas Mirzə ilə barışmağa müvəffəq oldular [9, s. 618; 5, s. 119] və şahzadənin bir neçə hücumunu dəstəklədilər. Məsələn, İyunun 30-da baş vermiş Qəmərli döyüşündə Qacar qoşununu sıxışdıran ruslara qəfildən hücum edən qala müdafiəçiləri onları çətin vəziyyətə sala bilmişdi. Lakin bu döyüşdə vaxtında kömək alan rus qoşunu xanın süvarilərini geri çəkilərək yenidən qalaya sığınmağa məcbur etmiş, Abbas Mirzə isə geri çəkilərək Şərurda mövqe tutmuşdu. Sonrakı döyüşlərdə şahın 15 minlik hərbi qüvvə ilə yardımı rus qoşunlarını geri çəkilməyə məcbur etmişdi [5, s. 119-120]. Nəticədə rus hərbi qüvvələri ərzaq ehtiyatı və hərbi təchizatını tükətmiş oldu. P.D.Sisianovun təhdidləri və qalanın təslim olmasına dair tələbləri heç bir nəticə vermədi. Avqustun sonunda onun çadırında keçirilən zabitlər şurasında əksəriyyət hücumdan imtina etməyin tərəfdarı oldu. 1804-cü il sentyabrın 4-də P.D.Sisianov rus qoşununu Gürcüstan sərhədinə doğru geri çəkməyə məcbur oldu [5, s. 124-125; 16, s. 35].

Rus qoşunu İrəvan xanlığını tərk etdikdən sonra Fətəli şah yerli hakimiyyəti yenidən bərpa etdi [5, s. 125]. 1804-cü ilin payızında Kəlbəli xan yenidən Naxçıvan hakimi kimi xanlıq taxtına sahib oldu. Abbasqulu xan paytaxtdan qovuldu [16, s. 35].

**Nəticə.** Beləliklə, I Rusiya-İran müharibəsindən əvvəl Qacarlar dövlətinin müdaxiləsi Naxçıvanda siyasi vəziyyətin tez-tez dəyişməsinə gətirib çıxarırdı. Belə gərgin vəziyyətin yaranmasına təsir edən amillərdən biri də təbii ki, Rusiyanın işğalçılıq planlarını həyata keçirmək istəyi idi. Hər dəfə Rusiya bölgəyə nüfuz etmək istəyini gerçəkləşdirmək istəyəndə Qacar hərbi qüvvələrinin Naxçıvana hücumu olurdu. Rusiyanın Cənubi Qafqazdakı hərbi komandanlığı Tiflisi, sonra isə Üç kilsəni dayaq nöqtəsi seçdiyi kimi, Qacarlar dövləti də Naxçıvandan əsas forpost olaraq istifadə edirdilər. Bu zaman hakimiyyətdə olan Kəlbəli xan xanlığın müstəqil idarəçiliyi üçün çalışırdı. O, Rusiyanın tabeliyinə keçdikdən sonra hakimiyyətin Gürcü çarlığında olduğu kimi əlindən alınacağından çəkinirdi. Qacarlarla müəyyən hallarda razılaşmağı hakimiyyətinin qorumaq üçün edirdi. İstənilən halda onun əsas məqsədi Naxçıvan xanlığını kənar müdaxilələrdən qorumaq və bölgəni daha sabit

siyasi vəziyyətdə saxlamaq idi. Lakin göründüyü kimi, müharibədən əvvəl böyük dövlətlərin işğalçılıq niyyətləri Naxçıvanda siyasi sabitliyin pozulmasına, gərginliyin yaşanmasına gətirib çıxarmışdı.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə, IV c., Bakı: Elm, 2000, 508 s.
2. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 120 s.
3. Həsənov H. XVIII əsrin son rübü – XIX əsrin əvvəlində Azərbaycan Rusiya-İran münasibətlərində. Tarix üzrə fəlsəfə doktoru diss. ... avtoref. Bakı, 2016, 29 s.
4. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016, 544 s.
5. Qarayev E.T. İrəvan xanlığı (1747-1828). Bakı: Avropa, 2010, 342 s., PDF.
6. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: Əcəmi, 2013, 184 s.
7. Pakrəvan Ə. Abbas Mirzə və Azərbaycan. Bakı: Qanun, 2010, 336 s., PDF.
8. АКАК (Акты собранные Кавказскою Археографическою Коммиссиею). Т. I, Тифлис: Типография главного управления наместника Кавказского, 1866, 816 с.
9. АКАК. Т. II, Тифлис: Типография главного управления наместника Кавказского, 1868, 1238 с.
10. Алиев Ф., Алиев М. Нахчыванское ханство (1747-1828). Баку: Кавказ, 2011, 286 с.
11. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 годъ. Часть II, Санкт-Петербургъ, 1869, 606 с.
12. Дубровин Н.Ф. Поход графа Зубова в Персию в 1796 г. с приложением оперативной карты похода и план осады Дербента // Военный сборник, 1874, № 2-6, с. 190
13. Зубов П.П. Подвиги русских воинов в странах кавказских с 1800 по 1834 год. Т. I, ч. II, Санкт-Петербург, 1835, 222 с.
14. Игамбердиев М. Иран в международных отношениях первой трети XIX в. Самарканд: Изд. Самаркандского ГУ, 1961, 297 с.
15. Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII – начало XIX в.). Баку: Элм, 1989, 127 с.
16. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской Империи. Москва: Новый Аргумент, 2006, 432 с.
17. Передняя Азия в документах (серия памяти Ю.Н.Марра). Книга I: Нахичеванские рукописные документы XVII-XIX вв. / Перевод и комментарии К.Н.Смирнова и Дж.Гаибова. Под редакцией доктора Ю.Н.Марра. Тифлис: Изд-во Грузинского филиала Академии Наук СССР, 1936, 141 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ilhamialiyev@yahoo.com.tr***

**Ilhami Aliyev**

## THE INFLUENCE OF IRAN ON THE POLITICAL SITUATION IN NAKHCHIVAN ON THE EVE OF THE FIRST RUSSO-IRANIAN WAR

The article examines the impact of the Qajar state on the political scene in Azerbaijan, particularly in Nakhchivan, in the early 19th century. It is worth noting that at the time, Russia and the Gajar state were engaged in a fierce battle for the lands of Azerbaijan. The Russian occupation of

several territories in Azerbaijan and the selection of Nakhchivan as one of its subsequent targets, the assertive position of the Qajar state against this occupation, and the desire to subjugate these areas to the shah's authority, undoubtedly strained the political situation in the Nakhchivan region. Before the starting of the first Russo-Iranian war, Qajar military forces attacked Nakhchivan many times, occupied the region, made changes in the local government. A certain part of the population was left from their homes, which led to the occurrence of cases.

Throughout these years, the heroic defense of Nakhchivan the Khan of Nakhchivan, Kalbali Khan I, was chosen with great management and leadership skills. He attempted to safeguard the region from the threat of invasion by employing highly sophisticated diplomatic maneuvers between Russia and the Khajar state. He tried to protect Nakhchivan and the Iravan Khanate from these attacks as much as he could. Until the beginning of the First Russian-Iranian war, however, the territory of the region was occupied by the Khajar state, and the Russian invasion plan was not carried out.

**Keywords:** *Gajar state, Russia, Nakhchivan Khanate, war, political situation, diplomatic maneuver.*

**Ильхами Алиев**

## ВЛИЯНИЕ ИРАНА НА ПОЛИТИЧЕСКУЮ СИТУАЦИЮ В НАХЧЫВАНЕ НАКАНУНЕ ПЕРВОЙ РУССКО-ИРАНСКОЙ ВОЙНЫ

В статье говорится о влиянии Каджарского государства на политическую ситуацию в Азербайджане, особенно в Нахчыване, в начале XIX века. Отмечается, что в то время Россия и Каджарское государство очень упорно боролись за земли Азербайджана. Оккупация Россией ряда земель Азербайджана и выбор Нахчывана в качестве одной из своих следующих целей, сильная позиция Каджарского государства против этой оккупации и стремление подчинить эти места шахской власти, конечно, обострили политическую ситуацию в Нахчыванском регионе. До начала первой русско-иранской войны каджарские вооруженные силы несколько раз нападали на Нахчыван, оккупировали территорию региона, производили изменения в местных органах власти, что повлекло за собой возникновение инцидентов, определенная часть населения была вынуждена покинуть свои дома, хотя и временно и т. д.

В эти годы хан Нахчывана Калбалы-хан I отличился своими выдающимися административными и военными способностями, проявленными при героической обороне Нахчывана. Он пытался защитить регион от угрозы вторжения, проводя очень ловкие дипломатические маневры между Россией и государством Каджаров. Он максимально защищал от этих нападений не только Нахчыван, но и Ереванское ханство. Однако до начала первой Русско-Иранской войны территория региона уже оказалась под контролем государства Каджаров, и план российского вторжения не был реализован.

**Ключевые слова:** *Каджарское государство, Россия, Нахчыванское ханство, война, политическая ситуация, дипломатический маневр.*

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 31.01.2025**
**Son variant 28.02.2025**